No: 02 2025
https://doi.org/10.64400/ndueej.046
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# BİZNES FƏALİYYƏTİNİN İQTİSADİYYATIN DİVERSİFİKASİYASINA TƏSİRİ

**Hüseyn Bağırsoylu**

https://orcid.org/0009-0009-1007-9414
Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan.
Yazışılan müəllif: huseyn30@yahoo.com; Tel: +994 55 555 25 20

## XÜLASƏ

Məqalədə iqtisadi diversifikasiya prosesinin zəruriliyi və ona təsir edən amillər şərh olunmuşdur. Həmin amillərdən biri olan biznes fəaliyyətinin məzmun və mahiyyəti açıqlanmış, iqtisadi dinamikaya təsiri izah olunmuşdur. Biznes siyasətinin, biznes mühitinin və ümumiyyətlə biznes fəaliyyətinin iqtisadi ədəbiyytlarda rast gələnən müxtəlif izahları ümumiləşdirilmiş, onların iqtisadi xarakteristikası verilmişdir.

2017-2024-ci illəri əhatə edən dövr ərzində Naxçıvan Muxtar Respyblikasında biznes fəaliyyətinin həyata keçirilən diversifikasiya proseslərinə təsiri bir sıra iqtisadi göstəricilər əsasında təhlil edimişdir. Muxtar Respublikada biznes mühitini şərtləndirən amillər izah olunmuş, nəticələr əsasında gələcəkdə iqtisadi dinamikanın təsiri altında diversifikasiyanın genişləndirilməsi istiqamətində təkliflər verilmişdir.

**Açar sözlər:** *diversifikasiya, biznes siyasəti, biznes mühiti, biznes fəaliyyəti.*

## GİRİŞ

Araşdırmalar göstərir ki, istənilən ölkədə həyata keçirilən iqtisadi diversifikasiya prosesləri çoxsaylı amillərin təsiri altında formalaşır. Bu bir qayda olaraq ölkədə aparılan iqtisadi siyasətin hədəf və prioritetləri ilə, həyata keçirilən iqtisadi yenidənqurmanın təşkilati, idarəetmə mexanizmləri ilə, bu prosesin metodoloji xüsusiyyətləri ilə, sahibkarlıq fəaliyyətinin inkişaf səviyyəsi ilə, azad rəqabətin səviyyəsi ilə, ayrıayrı sektor və sahələrin inkişaf səviyyəsi ilə, investisiya mühiti ilə, maliyyə əlçatanlığı ilə və s. çoxsaylı amillərlə əlaqədardır. Bu amillər içərisində xüsusi əhəmiyyət kəsb edənlərdən biri də ölkədə mövcud olan biznes mühitidir.

İstənilən ölkədə aparılan iqtisadi siyasətin həyata keçirilməsində biznes mühitinin rolu əvəzsiz və danılmazdır. Çünki bu mühit özündə çoxsaylı elə parametrləri birləşdirir ki, onlar mövcud olmadan normal iqtisadi inkişafı təmin etmək olmaz. Bu baxımdan da biznes mühitinin düzgün təşkil olunması ümumi iqtisadi siyasətin təmin edilməsində, diversifikasiya proseslərinin reallaşdırılmasında, dinamik, davamlı inkişafa nail olunmasında, ümumiyyətlə zəruri hədəf və prioritetlərin həll olunmasında xüsusi rola malikdir (6, səh 4).

**2.Biznesin məzmun və mahiyyəti. Onun iqtisadi inkişafdakı rolu.**

İqtisadi inkişafın müasir mərhələsində bütün ölkələrin iqtisadiyyatında kiçik və orta biznes xüsusi əhəmiyyətə malikdir. Biznes strukturları yaratmadan, onlara dəstək vermədən, onların fəaliyyətinin zəruri səviyyəsinə nail olmadan iqtisadi dinamikanı təşkil etmək çox çətin olur. Buna görə də bazar iqtisadiyyatının mövcud olduğu bütün ölkələrdə sahibkarlıq müəssisələrinin, o cümlədən kiçik və orta biznes strukturlarının fəaliyyətinin təşkili idarəetmənin prioritetinə çevrilir (5, səh17).

İqtisadi ədəbiyyatlarda və tədqiqat əsərlərində biznesin məzmun və mahiyyətinə yanaşmada müxtəlif fikirlərə rast gəlmək olur.

Azərbaycanlı alimlər tərəfindən hazırlanmış olan II cildlik "İzahlı iqtisadi terminlər lüğəti"nin I cildində biznesin izahı belə verilir: "Biznes "business" ingilis sözündəndir, iş, sahibkarlıq, əmlak saxlayan deməkdir. Özünün xüsusi və cəlbedilmiş vəsaitləri hesabına, öz təşəbbüsü, öz riski və məsuliyyəti əsasında, mənfəət əldə etmək və öz xüsusi işini inkişaf etdirmək məqsədilə həyata keçirilən iqtisadi fəaliyyətdir. Kiçik miqyasda və kiçik firmalarda həyata keçirilən biznes kiçik biznes adlanır". (1, səh 31).

Digər bir mənbədə, yəni rus alimi M.j.Aqafonovanın rəhbərliyi altında buraxılan "Böyük iqtisadi lüğət"də biznes iqtisadi fəaliyyətin mənfəət gətirən forması kimi şərh edilir. Gəlir gətirən və müxtəlif formada səmərə verən istənilən fəaliyyət növü biznesdir (2, səh 56).

Biznes fəaliyyətini şərtləndirən ən birinci amil biznes mühitidir. İstənilən ölkədə dinamik, sabit, davamlı inkişafa nail olmaq üçün əlverişli biznes mühiti yaradılmalı və onun bütün parametrləri sahibkarlar üçün əlçatan olmalıdır. Təsadüfi deyildir ki, dünyanın inkişaf etmiş ölkələri biznesi inkişaf etdirməklə ən yüksək nəticələr əldə edə bilmişlər. Bu baxımdan da həmin ölkələr daimi olaraq biznes mühitini təkmilləşdirir, onun bütün parametrlərini biznesmenlər üçün səmərəli istifadə şəraitində saxlayırlar. Səmərəli fəaliyyət üçün əlverişli biznes mühiti bir sıra vacib məsələlərin həll olunmasına şərait yaradır. Bu məsələlərə biznesin genişləndirilməsi və sürətləndirilməsi, yeni iş yerlərinin yaradılması, məşğulluğun artırılması, işsizliyin azaldılması, əhalinin zəruri tələbatlarının vaxtında ödənilməsini, iqtisadiyyatda işgüzar aktivliyin sürətlə artmasını, iqtisadiyyatda yaradılan yeni dəyərin həcminin çoxalmasını və sairəni aid etmək olar. Qeyd olunanların vacibliyini nəzərə alaraq bütün ölkələr bizneslə bağlı bütün məsələləri daimi olaraq təkmilləşdirir, onun beynəlxalq tələblər və standartlara uyğunlaşdırılması üçün mütəmadi islahatlar reallaşdırırlar.

İstənilən ölkədə biznes sahəsində həyata keçirilən islahatların əsas məqsədi bu fəaliyyətın növünü daha da genişləndirməkdən, onun mexanizmini sadələşdirməkdən, bu fəaliyyətin hamı üşün əlçatanlığını təmin etməkdən, xarici investisiyaların bu sahəyə cəlb olunması şəraiti və şərtlərini yaxşılaşdırmaqdan və s. bu kimi müsbət meyllərin yaradılmasından ibarətdir.

Dünyanın müxtəlif regionlarının fərqli surətdə inkişaf etmələrinin mühüm səbəblərindən biri məhz həmin regionlarda biznes mühitinin yaxşılaşması, biznesin sürətlənməsi və s. olmuşdur. Bunu Cənubi-Şərqi Asiya ölkələrinin timsalında aydın görmək olar. Bu ölkələr işçi qüvvəsinin ucuz olmasından istifadə edərək, xeyli vergi güzəştləri tətbiq etmiş, ucuz yerli valyuta mexanizmindən istifadə edərək küllü miqdarda xarici investisiyalar cəlb edərək iqtisadiyyatın sürətli inkişafını biznes vasitəsilə təmin edə bilmişlər.

İstənilən ölkədə, istənilən sahədə, istənilən istiqamətdə biznesin qurulması və onun səmərəli təşkili məhz biznes mühitindən asılıdır. Bu mühiti yaradan amillər məlum olduğu kimi biznes mühitini yaradan amillər hesab edilir və siyasi, iqtisadi, sosial və təşkilati amillərə bölünürlər (3, səh 16).

Siyasi amillərə ölkədə mövcud olan siyasi sabitlik, biznes strukturlarına cəlb olunmuş xarici investisiyalarla bağlı dövlətin apardığı siyasət, beynəlxalq iqtisadi münasibətlərdə, tərəfdaşlıq əlaqələrində etibarlıq səviyyəsi, biznes aləmində dövlətin idarəçilik mexanizminin səmərəlilik səviyyəsi, dövlətin iqtisadi və biznes siyasətində mövqe sabitliyinin səviyyəsi və s. aid edilə bilər.

Biznes mühitini formalaşdıran ən mühüm amillərdən biri iqtisadi amillərdir. Həmin amillərə ölkədə ümumi vəziyyəti xarakterizə edən mühüm makroiqtisadi göstəricilər olan ümumi daxili məhsulun artım tempi səviyyəsi, əhalinin əmək qabiliyyətli hissəsinin məşğulluq səviyyəsi, daimi volotol vəziyyətdə olan inflyasiyanın səviyyəsi, bunlarla yanaşı digər mühüm amillər, yəni ölkədə iş qüvvəsinin ödəniş səviyyəsi, vergi ödənişləri üzrə tətbiq edilən güzəşt və azadolmaların səviyyəsi, gömrük ödənişlərinin səviyyəsi, biznes strukturlarında fəaliyyətə cəlb olunmuş strukturlar üzrə güzəşt və imtiyazların səviyyəsi, biznes əmtəələrinə olan tələb və təklifin səviyyəsi, cari dövrdə ölkədə tətbiq edilən uçot faiz dərəcələrinin səviyyəsi və s. aid oluna bilər.

Biznes mühitinin formalaşdırılmasına təsir edən üçüncü qrup amillərə sosial amillər aid edilir. Bu amillərə dövlətin apardığı sosial siyasətin hədəf və prioritetləri, cəmiyyət üzvlərinin biznes fəaliyyətinə münasibəti, cəmiyyət üzvlərinin sahibkarlığq yanaşma səviyyəsi, cəmiyyət üzvlərinin iqtisadi bilik səviyyəsi, ölkədə mövcud olan sosial vəziyyətin səviyyəsi və s. aid oluna bilər.

Biznes mühitinin formalaşmasına təsir edən digər qrup amillərə təşkilati amillər aid edilir. Bu amillərə ölkədə biznes fəaliyyətinin təşkili səviyyəsi, biznesin təşkilatçılarının idarəetmə səviyyəsi, biznes strukturlarında fəaliyyət göstərəcək kadrların hazırlıq səviyyəsi, fəaliyyətdə olan kadrların yenidən hazırlanma səviyyəsi, biznes əməkdaşlığının təşkili və tənzimlənməsi səviyyəsi, biznes strukturlarının fəaliyyətində yeniliklərin, innovasiyaların tətbiq olunma səviyyəsi və s. aid oluna bilər.

Dünya təcrübəsi göstərir ki, istənilən ölkədə biznes fəaliyyəti biznes plan əsasında həyata keçirilir. Bu biznes fəaliyyətini reallaşdırmaq üçün bütün səviyyələrdə tələb edilən ən vacib sənəddir. Biznes plan biznes strukturları tərəfindən biznes fəaliyyətinin həyata keçirilməsini, biznes strukturunun fəaliyyətini, struktur haqqında məlumatları, fəaliyyətlə bağlı istehsalı, əmtəəsi, satış bazarı, marketinqi, əməliyyatların təşkili xarakteri, fəaliyyətin səmərəliliyi səviyyəsini, əks etdirən plan və proqramdır. Bu proqram biznes fəaliyyəti ilə məşğul olan təsərrüfat subyektinin fəaliyyət istiqamətlərini bütün parametrləri üzrə proqnozlaşdıran və perspektivdə onun inkişafından gözlənilən əsas maliyyə nəticələrini müəyyən edən sənəddir. Bu sənəddə, yəni, biznes planda yaxın dövr üçün planlaşdırılan satış həcmi, satışdan daxilolmalar, istehsal xərcləri, plan maya dəyəri, istehsal maya dəyəri, ümumi mənfəət, səmərəlilik səviyyəsi, kredit resurslarından istifadə, xüsusi vəsaitlərdən istifadə, cəlb olunmuş vəsaitlərin qaytarılması müddətləri haqda məlumatlar və digər zəruri göstəricilər öz əksini tapır (1, səh 132).

Beynəlxalq təcrübədən məlum olduğu kimi biznes planın hazırlanması və həyata keçirilməsi mühüm bir prinsip əsasında reallaşdırılar. Bu prinsip "birinci rəhbər" prinsipidir. Yəni bu prosesdə mütləq biznes strukturun rəhbəri və ya sahibkar özü iştirak edir. Biznes plana aşağıdakı bölmələr daxil edilir. Yəni biznes planın strukturu aşağıdakılardan ibarət olur: 1)biznes planın həyata keçirilməsindən gözlənilən maliyyə nəticələrini və eləcə də layihənin üstünlüklərini əks etdirən xülasə; 2)konfidensial memorandum; 3)biznesin, müəssisənin, sahənin , istiqamətin xarakteristikası; 4)biznes planın əsas hissəsi. Bir qayda olaraq biznes planın əsas hissəsi 15-20 bölmədən ibarət olur.

Biznes mühitinin cəlbediciliyi aşağı səviyyədə olduqda bu sahəyə nə yerli, nə də ki xarici investorlar maraq göstərmirlər. Həm də belə olduqda bazarlar ümumi inkişafdan geri qalır, qloballaşma, inteqrasiya proseslərinə qoşula bilmirlər. Bu səbəbdən də bütün ölkələrdə biznes mühitinin normal səviyyəyə gətirilməsi, eləcə də biznes mühitinin sahibkarlıq üçün uyğun parametrlərdə qurulması ölkə iqtisadiyyatında mühüm vəzifəyə çevrilir.

## 3.Naxçıvan Muxtar Respublikasında biznesin inkişafının diversifikasiyaya təsirinin təhlili

Muxtar Respublikanın uzun müddətdir ki, blokada şəraitində yaşamasına baxmayaraq sahibkarlığın əsasında biznes fəaliyyətinin genişləndirilməsi qarşıda duran ən mühüm və zəruri məsələlərin həllinə yol açmışdır. Bu məsələlərə iqtisadiyyatın sahə və sektorlarında normal inkişaf dinamikasının təmin edilməsini, yeni iş yerlərinin yaradılmasını, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsini, işsizlik səviyyəsinin aşağı salınmasını, əhalinin ən zəruri, gündəlik tələbat mallarına olan tələbatının ödənilməsini, kənd təsərrüfatında biznes strukturlarının fəaliyyətə cəlb olunması yolu ilə əhalinin ərzaq məhsulları ilə vaxtında təmin edilməsini və s. aid etmək olar.

Muxtar Respublikada biznes strukturlarının sayı son illərdə artaraq 01.01.2022-ci il tarixə 1052-yə çatmışdır. Onların fəaliyyəti nəticəsində Muxtar Respublikanın mövcud resurslar bazsı genişləndirilmiş, iqtisadi potensial güclənmiş, səmərəli iqtisadi nəticələr əldə olunmuşdur. Qeyd edilən tarixə Muxtar Respublikada müxtəlif hüquqi təşkilati formada biznes strukturları fəaliyyət göstərmişlər. (Cədvəl 1)

**01.01.2022-ci il tarixə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən biznes strukturları haqqında məlumat**

**Cədvəl 1.**

| № | Fəaliyyət istiqaməti, məhsul növləri istehsalı | Biznes strukturlarının hüquqi-təşkilati forması | Sayı |
|---|---|---|---|
| 1 | Qida məhsulu istehsalı | Publik hüquqi şəxs | 4 |
| 2 | Elektrik enerjisi istehsalı | Su elektrik stansiyaları | 9 |
| 3 | Günəş enerjisi | Naxçıvan Günəş Elektrik Stansiyası | 1 |
| 4 | Arıçılıq, bal emalı və qablaşdırılması | Fiziki şəxslər | 166 |
| 5 | Tərəvəz məhsulları istehsalı | «--» | 41 |
| 6 | Un məmulatları və məhsulları | «--» | 9 |
| 7 | Çörək istehsalı | «--» | 127 |
| 8 | Süd məhsulları istehsalı | «--» | 9 |
| 9 | Limonçuluq təsərrüfatları | «--» | 33 |
| 10 | Üzümçülük təsərrüfatı | «--» | 25 |
| 11 | Gül və göbələk yetişdirilməsi | «--» | 5 |
| 12 | Quşçuluq təsərrüfatı | «--» | 32 |
| 13 | Bağçılıq təsərrüfatı | «--» | 53 |
| 14 | Balıqçılıq | «--» | 31 |
| 15 | Heyvandarlıq | «--» | 245 |
| 16 | Soyuducu anbar | «--» | 18 |
| 17 | Kərpic istehsalı | «--» | 21 |
| 18 | Qapı-pəncərə istehsalı | «--» | 6 |
| 19 | Mebel istehsalı | «--» | 23 |
| 20 | Minik və yük avtomobili istehsalı | Məhdud məsuliyyətli cəmiyyət | 1 |
| 21 | Topdan satış anbarı | «--» | 4 |
| 22 | İstixana kompleksi, şitil yetişdirilməsi, tərəvəz məhsulları istehsalı | «--» | 3 |
| 23 | ərzaq və qida məhsulları istehsalı | «--» | 76 |
| 24 | Tikinti quraşdırma işləri, tikinti materialları | «--» | 39 |
| 25 | Minik və yük avtomobili istehsalı | «--» | 1 |
| 26 | Tibbi ləvazimatlar, eləcə də təmizləyici, yuyucu maddələr | «--» | 2 |
| 27 | Soyuducu anbarlar | «--» | 19 |
| 28 | Rabitə avadanlıqları | «--» | 1 |
| 29 | Geyim vasitələri | «--» | 11 |
| 30 | Texniki avadanlıqlar və məişət əşyaları istehsalı | «--» | 20 |
| 31 | Taxıl istehsalı, toxum emalı | «--» | 17 |
|  | **CƏMİ** | - | 1052 |

**Mənbə:**Cədvəl Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Cədvəl göstəricilərindən görünür ki, 01.01.2023-ci il tarixə Muxtar Respublikada fəaliyyətdə olan 1052 biznes strukturu müxtəlif hüquqi-təşkilati formaya malik olmuşlar. Belə ki, onlardan 10 müəssisə dövlətə (o cümlədən 1 günəş enerjisi istehsalı müəssisəsi olan Naxçıvan Günəş Elektrik Stansiyası və 9 Su Elektrik Stansiyaları), 4 müəssisə publik hüquqi şəxslərə, 844 müəssisə fiziki şəxslərə, 194 müəssisə isə məhdud məsuliyyətli cəmiyyətlərə aid olmuşdur.

Araşdırmalar göstərir ki, Muxtar Respublikada biznesin inkişaf etdirilməsi nəticəsində bu sahəyə aid olan strukturların sayı sürətlə artmışdır. Cədvəldən göründüyü kimi bu iqtisadi subyektlər iqtisadiyyatın ən müxtəlif təyinatlı sahələrində fəaliyyət göstərərək diversifikasiya proseslərinin həm geniş vüsət almasını, həm sürətlənməsini təmin etmiş, iqtisadi potensialın artırılmasında, iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin möhkəmləndirilməsində, səmərəli nəticələrin əldə edilməsində baza rolunu oynamışlar. Məhz bu bazanın səmərəli istifadəsi nəticəsində regionda sahibkarlıq fəliyyətinə yüksək dəstək göstərilmiş, iqtisadiyyatda işgüzar fəaliyyət yeni impuls almış, yeni müəssisələrin yaradılması nəticəsində məşğulluğun səviyyəsi yüksəlmiş, əhalinin real gəlirlərinin artım dinamikası davam etmiş, real iqtisadiyyatın dinamikliyi yüksəlmiş, qarşıya qoyulan mühüm hədəflər üzrə səmərəli fəaliyyət təmin olunmuşdur.

Naxçıvan Muxtar Respublikasında biznes fəaliyyətinin diversifikasiya proseslərinə təsirini təhlil etmək üçün bir sıra makroiqtisadi göstəriciləri təhlil etmək lazımdır. (Cədvəl 2)

Cədvəl 2-nin göstəricilərindən aydın olur ki, 2017-2024-ci illər ərzində Muxtar Respublikada biznes fəaliyyətinin genişləndirilməsi nəticəsində əsas iqtisadi göstəricilərin artımla müşahidə edilən dinamikası təmin olunmuşdur. Belə ki, həmin dövr ərzində ÜDM-in həcmi 2021-ci ildə 2017-ci ilə nəzərən 314 mln manat və ya 11,62% artaraq rekord həddə, yəni 3,016 mln manata çatmışdır. Təhlil edilən illərn ərzində bu göstərici hər il artmışdır. Əvvəlki il ilə müqayisədə bu göstərici 2017-ci ildə 89 mln manat və ya 4,6%, 2018-ci ildə 71 mln manat və ya 2,62%, 2019-cu ildə 67 mln manat və ya 2,4%, 2020-ci ildə 68 mln manat və ya 2,39%, 2021-ci ildə isə 108 mln manat və ya 3,71% artmışdır.

**2017-2021-ci illər ərzində Naxçıvan Muxtar Respublikasında bəzi iqtisadi göstəricilərin dinamikası**

**Cədvəl 2.**

| № | Göstəricilər | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|
| 1 | İl ərzində istehsal olunmuş ÜDM-in həcmi (mln manatla) | 2.702 | 2.773 | 2.840 | 2.908 | 3.016 |
| | əvvəlki il ilə müqayisədə dəyişmə (+;-) mln manatla | +89 | +71 | +67 | +68 | +108 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | əvvəlki il ilə müqayisədə dəyişmə (+;-) %-lə | +4.6 | +2.62 | +2.4 | +2.39 | +3.71 |
| 2 | Biznes strukturları tərəfindən istehsal edilən ÜDM-in həcmi (mln man) | 2.362 | 2.409 | 2.471 | 2.510 | 2.598 |
| | əvvəlki il ilə müqayisədə dəyişmə (+;-) mln manatla | +115 | +47 | +62 | +39 | +88 |
| | əvvəlki il ilə müqayisədə dəyişmə (+;-) %-lə | +5.12 | +1.98 | +2.57 | +1.57 | +3.1 |
| 3 | Adambaşına düşən ÜDM (manatla) | 5990.4 | 6101.3 | 6201.5 | 6310.4 | 6544.5 |
| | əvvəlki il ilə müqayisədə dəyişmə (+;-) mln manatla | +381.8 | +110.9 | +100.2 | +108.9 | +234.1 |
| | əvvəlki il ilə müqayisədə dəyişmə (+;-) %-lə | +6.8 | +1.8 | +1.6 | +1.75 | +3.7 |
| 4 | İstehsal olunmuş sənaye məhsulu (mln man) | 967060.0 | 990067.0 | 1014971.5 | 1040475.9 | 1067528.3 |
| | əvvəlki il ilə müqayisədə dəyişmə (+;-) mln manatla | +24.1 | +23.0 | +24.9 | +25.5 | +27.05 |
| | əvvəlki il ilə müqayisədə dəyişmə (+;-) %-lə | +2.5 | +2.4 | +2.5 | +2.2 | +2.6 |

**Mənbə:**Cədvəl Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Təhlil edillən illər ərzində daha bir mühüm göstərici olan biznes strukturları tərəfindən istehsal edilən ÜDM-in həcmi də artımla müşahidə edilən dinamikaya malik olmuşdur. Belə ki, bu göstərici 2021-ci ildə 2017-ci ilə nəzərən 236 mln manat və ya 9,9% artmışdır. Əvvəlki il ilə müqayisədə bu göstərici 2017-ci ildə 115 mln manat və ya 5,12%, 2018-ci ildə 47 mln manat və ya 1,98%, 2019-cu ildə 62 mln manat və ya 2,57%, 2020-ci ildə 39 mln manat və ya 1,57%, 2021-ci ildə isə 88 mln manat və ya 3,1% artmışdır.

Biznes fəaliyyətinin təsiri nəticəsində diversifikasiya proseslərinin genişlənməsi və sürətlənməsi səbəbindən Muxtar Respublikada daha bir göstərici, adambaşına düşən ÜDM-in həcmi də artmışdır. Belə ki, bu göstərici 2021-ci ildə 2017-ci ilə nəzərən 554,1 manat və ya 9,3% artmışdır. İllər üzrə təhlil etdikdə görürük ki, əvvəlki ilə nəzərən bu göstərici 2017-ci ildə 381,8 manat və ya 6,8%, 2018-ci ildə 110,9 manat və ya 1,8%, 2019-cu ildə 100,2 manat və ya 1,6%, 2020-ci ildə 108,9 manat və ya 1,75%, 2021-ci ildə isə 234,1 manat və ya 3,7% artmışdır.

Biznes strukturlarının sahələr üzrə fəaliyyəti və onun diversifikasiyaya təsiri nəticəsində Muxtar Respublika iqtisadiyyatında aparıcı sahələrdən biri olan sənayı məhsulu istehsalı sahəsində də artımla müşahidə edilən dinamika mövcud olmuşdur. Belə ki, bu göstərici 2021-ci ildə 2017-ci il ilə müqayisədə 100468,3 mln manat və ya 10,4% artmışdır. Bu göstərici üzrə artım illər üzrə 2017-ci ildə 24,1 min manat və ya 2,5%, 2018-ci ildə 23,0 min manat və ya

2,4%, 2019-cu ildə 24,9 min manat və ya 2,5%, 2020-ci ildə 25,5 min manat və ya 2,2%, 2021-ci ildə isə 27,05 min manat və ya 2,6% təşkil etmişdir.

## NƏTİCƏ

Tərəfimizdən aparılan araşdırmalar vasitəsi ilə sübut olunmuşdur ki, istənilən ölkədə biznes strukturlarının fəaliyyəti, ölkə iqtisadiyyatında bazar tipli modelin qüvvədə olduğu halda, iqtisadiyyat üçün, dinamika üçün həlledici qüvvəyə çevrilir. Çünki kiçik və orta biznesin inkişafı vasitəsi ilə iqtisadiyyatın istənilən sahə və sektorunun inkişafına, eləcə də strateji layihələrin icra olunmasına nail olmaq olar. Kiçik və orta biznes strukturları iqtisadiyyatda daha çox manevr etmək imkanlarına malik olduqlarından, eləcə də onlara daimi dövlət dəstəyinin mövcud olduğundan onların vasitəsi ilə ölkə üçün zəruri olan bütün layihələri reallaşdırmaq olar.

Təhlillər göstərir ki, Naxçıvan Muxtar Respublikasında biznes mühitinin yaxşılaşması yeni biznes strukturlarının yaranmasına, onların sayının çoxalmasına gətirib çıxarmışdır. Onların fəaliyyəti nəticəsində iqtisadiyyatın sahələrində diversifikasiya prosesləri güclənmiş, genişlənmiş, nəticədə ən vacib makroiqtisadi göstəricilərin dinamik vəziyyəti təmin olunmuşdur. Biznes strukturlarının diversifikasiyaya təsirini daha da gücləndirmək üçün gələcəkdə balanslaşdırılmış dinamikası təmin olunmalıdır.

## ƏDƏBİYYAT SİYAHISI:

**1.**İzahlı iqtisadi terminlər lüğəti. Akademik Ə.M.Abbasov, i.e.d.M.M.Bağırov, i.e.d.D.A.Bağırov, i.e.d.C.H.Pürhani. Bakı, I cild, Nurlan, 2005, 536 səh.

**2.**Большой экономический словарь./под редакцией М.Ю.Агафонова. 2-ое изд.доп. и перераб. М.:Институт новой экономики. 1997, 864 стр.

**3.**Bağırov Firdovsi Damət oğlu "Azərbaycanda xarici investisiyaların formalaşması və səmərəliliyinin qiymətləndirilməsi". 5301.01- "Daxili fiskal siyasət və dövlət maliyyəsi" ixtisasında iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı 2015, 142 səh.

**4.**Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları, 2022 il.

**5.**Bağırov O.M."İqtisadiyyatın diversifikasiyası və onun maliyyə nəticələrinin qiymətləndirilməsi". 5301.01- "Daxili fiskal siyasət və dövlət maliyyəsi" ixtisasında iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı 2021, 145 səh.

**6.** Azərbaycan 2030: sosial iqtisadi inkişafa dair Milli Prioritetlər. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli sərəncamı ilə təsdiq edilmişdir. Bakı, 2021, 10 səh.

## SUMMARY

## THE IMPACT OF BUSINESS ACTIVITY ON ECONOMIC DIVERSIFICATION

**Hüseyn Bağırsoylu**

The article discusses the necessity of the economic diversification process and the factors affecting it. One of these factors—business activity—is explained in terms of its content and essence, and its impact on economic dynamics is analyzed. Various definitions of business policy, business environment, and overall business activity found in economic literature are summarized and their economic characteristics are presented.

The impact of business activity on the diversification processes carried out in the Nakhchivan Autonomous Republic during the period of 2017–2024 is analyzed based on a number of economic indicators. The factors influencing the business environment in the Autonomous Republic are examined, and proposals are made to expand diversification in the future under the influence of economic dynamics based on the findings.

**Keywords:** *diversification, business policy, business environment, business activity.*

## РЕЗЮМЕ

## ВЛИЯНИЕ ПРЕДПРИНИМАТЕЛЬСКОЙ ДЕЯТЕЛЬНОСТИ НА ДИВЕРСИФИКАЦИЮ ЭКОНОМИКИ.

**Гусейн Багырсойлу.**

В статье рассматривается необходимость процесса экономической диверсификации и факторы, влияющие на него. Один из таких факторов — предпринимательская деятельность — раскрывается с точки зрения содержания и сущности, а также объясняется её влияние на экономическую динамику. Обобщены различные трактовки бизнес-политики, бизнес-среды и предпринимательской деятельности, встречающиеся в экономической литературе, и дана их экономическая характеристика.

Воздействие предпринимательской деятельности на процессы диверсификации, реализованные в Нахичеванской Автономной Республике в период с 2017 по 2024 годы, проанализировано на основе ряда экономических показателей. Рассмотрены факторы, формирующие бизнес-среду в Автономной Республике, и на основе результатов предложены направления по расширению диверсификации в будущем под воздействием экономической динамики.

**Ключевые слова:** *диверсификация, деловая политика, деловая среда, деловая активность.*